# Vətəndaş rifahının təminatı istiqamətində islahatların növbəti mərhələsi

***Xəbər verildiyi kimi, Prezident İlham Əliyevin imzaladığı yeni sərəncamla 1 yanvar 2022- ci il tarixdən minimum aylıq əməkhaqqının məbləği artırılaraq, 250 manatdan 300 manata çatdırılır. Dövlət başçımızın digər sərəncam və fərmanları ilə dövlət büdcəsindən maliyyələşdirilən bir sıra təşkilatlarda çalışanların da əməkhaqqı artırılıb. O cümlədən aztəminatlı ailələrin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində də qətiyyətli addımlar atılıb. Milli Məclisin deputatı, Azərbaycan Demokratik İslahatlar Partiyasının sədri, tibb elmləri doktoru Asim Mollazadə dövlət başçımızın əməkhaqqı artımı ilə əlaqədar sərəncam və fərmanlarını sosial sahədə növbəti inqilabi hadisə adlandırdı.***



Partiya sədri bildirdi ki, son illər geniş vüsət almış islahatlar bütün sahələri əhatə edib. Dünyanı koronavirus pandemiyasının bürüdüyü, əksər dövlətlər , o cümlədən bir sıra iri şirkətlər ciddi iqtisadi itkiyə məruz qaldığı bir vaxtda Azərbaycanda nəzərdə tutulmuş sosial proqramlar uğurla icra olunur, üstəlik əhalinin həyat tərzinin daha da yaxşılaşdırılması istiqamətində növbəti tədbirlər həyata keçirilir. Son illər əhalinin sosial müdafiəsinin gücləndirilməsi sahəsində tədbirlərin əhatə dairəsi daha da genişləndirilmişdir. Budur, ölkəmizdə vətəndaş rifahının təminatı istiqamətində islahatların növbəti mərhələsinə start verildi. Bu tədbirlər respublikamızda insan amilinin dövlət siyasətinin prioriteti təşkil etməsindən xəbər verir.

A.Mollazadə dedi ki, Prezident İlham Əliyevin imzaladığı yeni sərəncam və fərmanlar əhalinin həssas qruplarına yönələn sosial ödənişlərin artırılmasını, xüsusilə, son illərdə geniş miqyas alan islahatların uğurla yerinə yetirilməsini təmin edir. Prezident İlham Əliyevin yeni “Dövlət büdcəsindən maliyyələşən bir sıra təşkilatlarda çalışan işçilərin əməkhaqlarının artırılması haqqında” sərəncamı da 2022-ci ilin yeni sosial paketinin tərkib hissəsidir. Dövlət başçımızın imzaladığı yeni sərəncam əhalinin güzəranın yaxşılaşdırılmasında mühüm rol oynayacaq. Bu artım son üç ildə sosial sahədə inqilabi xarakter alan, bütün istiqamətlər üzrə sosial ödənişlərdə ciddi artımları təmin edən islahatların davamıdır. Dövlət başçısının sərəncamları ilə son üç ildə ölkəmizdə minimum aylıq əməkhaqqı 2,3 dəfə artırılaraq 130 manatdan 300 manata çatdırılıb”.

Partiya sədri bu sərəncamın dövlət büdcəsindən maliyyələşən bir sıra təşkilatlarda çalışan işçiləri əhatə etməklə onların sosial rifahının yaxşılaşdırılmasına xidmət edir. Həmin təşkilatlarda çalışanların maaşları 2022-ci il yanvarın 1-dən orta hesabla 20 faiz artırılacaq. Bu məqsədlə dövlət büdcəsindən 9 milyon manat illik əlavə vəsait nəzərdə tutulub. Məndə olan məlumata görə, bu təşkilatlarda ümumilikdə 4 min şəxs çalışır. Dövlət başçısının imzaladığı yeni fərman və sərəncamlar, ümumilikdə ,732 min şəxs, o cümlədən 132 min doktorant və tələbə əhatə edərək müavinət və təqaüd formasında onlara yönələn sosial ödənişlərin gələn ilin əvvəlindən artırılmasını təmin edir. Bu artımlar üçün illik əlavə 200 milyon manat ayrılıb.

Partiya sədri bildirdi ki, Ermənistan üzərində qazandığımız tarixi Qələbədən sonra Qarabağa genişmiqyaslı quruculuq, abadlıq, yenidənqurma işlərinə başlanılıb: “Təbii ki, həmin işlərin görülməsi böyük vəsait tələb edir. Artıq azad olunmuş torpaqlarda bərpa işləri geniş vüsət alıb. Bərpa və yenidən qurma aparılması üçün dövlət büdcəsindən 2,2 milyard manat vəsait də ayrılıb. Göründüyü kimi, möhtərəm Prezidentimiz Qarabağın bərpasını ciddi nəzarətdə saxlayıb. Buna baxmayaraq, əhalinin həyat tərzinin yaxşılaşdırılmasını da prioritet vəzifə kimi qarşıya qoyub”.

Prezident İlham Əliyevin imzaladığı yeni sərəncamla təhsil sahəsində çalışanların da əmək haqqı artırılacaq. Bu, ölkəmizdə təhsil işçilərinin sosial müdafiəsinə, ümumiyyətlə insan amilinə diqqət və qayğının növbəti təzahürüdür.

***Söhbəti qələmə aldı:***
***Əliqismət BƏDƏLOV,***
***“Xalq qəzeti”***

Xalq qəzeti.- 2021.- 28 dekabr.- S.11.